**«Təsdiq edirəm»**
**Obyektin rəhbəri**
**___________________**
**«__» _______ 20_ - ci il**

**«Razılaşdırılıb»**
**Naxçıvan MR Fövqəladə Hallar Nazirliyinin mülki müdafiə işinin təşkili şöbəsinin rəisi**
**___________________**
**«__» _______ 20_ - ci il**

**Təbii və texnogen xarakterli fövqəladə hal təhlükəsi yarandıqda və baş verdikdə işçilərinin sayı 50 nəfərədək olan idarə, müəssisə və təşkilatların fəaliyyəti üzrə**

# T Ə L İ M A T

## Ümumi müddəalar.

Bu təlimat təbii və texnogen xarakterli fövqəladə hal təhlükəsi yarandıqda və baş verdikdə, həmçinin mülki müdafiə tədbirləri yerinə yetirilərkən işçilərinin sayı 50 nəfərədək olan idarə, müəssisə və təşkilatların işçilərinin fəaliyyət qaydasını müəyyən edir. Təlimatın icrası obyektdə işləyən bütün işçilər üçün məcburidir.

Sülh və müharibə dövrlərində fövqəladə hal təhlükəsi yarandıqda və baş verdikdə müəssisədə tutduğu vəzifədən asılı olmayaraq, bütün işçilər bu təlimatla müəyyən olunmuş fəaliyyət qaydalarını dəqiq bilməli və yerinə yetirməli, özlərinin həyat və sağlamlığına zərər gətirə biləcək hərəkətlərə yol verməməlidir.

Təbii və texnogen xarakterli fövqəladə hallar qəflətən və ya müxtəlif müddət davam edən təhlükələrdən sonra baş verə bilər. Odur ki, fövqəladə hadisənin baş vermə təhlükəsi yarandıqda bütün səylər fövqəladə hadisənin qarşısının alınmasına və dəyə biləcək ziyanın maksimum azaldılmasına yönəldilməlidir. Fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə vahid dövlət sisteminin yerli orqanlarının fəaliyyət rejiminə uyğun olaraq, kiçik müəssisələr də müvafiq fəaliyyət rejimlərinin (yüksək hazırlıq və ya fövqəladə hal rejimi) birinə keçirilir.

Fövqəladə halların qarşısının alınması, işçilərin və maddi sərvətlərin mühafizəsi üzrə müəyyən edilmiş tələbləri yerinə yetirməyən işçilər işdən azad olunmaq da daxil olmaqla, maddi və inzibati məsuliyyətə cəlb oluna bilər.

Bu təlimat müəssisə rəhbərliyinin qovluğunda saxlanılır. Onun məzmunu bütün işçilərə çatdırılır. Məsul vəzifəli şəxslər üçün təqvim planından çıxarışlar edilir. Çıxarışlarda fövqəladə hadisələr zamanı aidiyyəti vəzifəli şəxslərin yerinə yetirəcəyi tədbirlər əksini tapmalıdır.

### 1.Təbii və texnogen xarakterli fövqəladə hal təhlükəsi yarandıqda və baş verdikdə işçilərin fəaliyyəti.

**1.1. Təbii və texnogen xarakterli fövqəladə hadisələr baş verdikdə müəssisədə yarana biləcək vəziyyət:**

Müəssisənin normal fəaliyyətinə təsir edə bilən potensial təhlükəli obyektlərin siyahısı göstərilir.

Müəssisə ərazi üzrə ___________ rayonda (şəhərdə) yerləşir. Onun yaxınlığında yerləşən digər potensial təhlükəli obyektlər aşağıdakılardır (siyahı göstərilir).

**Qeyd:** Potensial təhlükəli obyektlər barədə məlumat Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyindən və ya müvafiq yerli icra hakimiyyəti orqanından alına bilər.

**1.2. Müdiriyyətin və işçilərin fövqəladə hadisənin baş vermə təhlükəsi barədə xəbərdar olunması qaydası.**

Müəssisə ərazisində müdiriyyətin və işçilərin fövqəladə hadisələrdən xəbərdar olunması əvvəlcədən işlənib hazırlanmış xəbərdarlıq sxeminə əsasən həyata keçirilir (Əlavə 5).

Qeyri iş vaxtı (gecə) müdiriyyətin və işçilərin xəbərdar olunması telefon vasitəsilə həyata keçirilir (xəbərdarlığa cavabdeh şəxsin vəzifəsi göstərilir). İlk növbədə müdiriyyət, sonra isə vəzifəsindən asılı olaraq işçilər xəbərdar edilir_______ (hansı vasitələrlə).

İş vaxtı əməkdaşlar ____________ üsulla xəbərdar olunur.

«Hamının diqqətinə» siqnalı (siren səsi) eşidildikdə radio və televizorlar nitq məlumatlarının qəbulu rejiminə keçirilir, müvafiq dövlət orqanlarının məlumatları dinlənilir.

**1.3.Təxliyə tədbirlərinin təşkili üçün avtomobil nəqliyyatı vasitələrinin ayrılması qaydası.**

Təcili təxliyə tədbirləri həyata keçirilərkən bütün xidməti, eləcə də şəxsi avtonəqliyyat vasitələrindən istifadə edilir. İşçilərin təhlükəli

zonadan çıxarılması üçün bütün şəxsi avtonəqliyyat vasitələri müdiriyyətin sərəncamına verilir.

**1.4. Yoluxucu xəstəliklərin yayılması təhlükəsi olduqda epidemiya əleyhinə tədbirlərin yerinə yetirilməsi üzrə işçilərin fəaliyyəti.**

Müəssisənin ərazisində və ona yaxın yerlərdə yoluxucu xəstəliklərin yayılması zamanı xəstələrin aşkar olunması və izolyasiya edilməsi məqsədilə gigiyena-epidemiologiya mərkəzinin müəyyən etdiyi rejimə əməl edilməli, təcili profilaktika və immunizasiya işləri aparılmalıdır.

Yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə işə gələn işçilərin sanitar təmizlənməsi keçirilməli, paltarları dəyişdirilməli və ya dezinfeksiya edilməlidir. Avtomobillərin xüsusi təmizlənməsi həyata keçirilməlidir. Sanitar təmizləmə yeri _____, xüsusi təmizləmə yeri ____.

**1.5. Fövqəladə hal təhlükəsi yarandıqda və baş verdikdə maddi sərvətlərin mühafizəsi üzrə görülən tədbirlər.**

Fövqəladə hal təhlükəsi yarandıqda və baş verdikdə bütün işçilər maddi sərvətlərin qorunması üçün tədbirlər görməlidir. Fövqəladə halların nəticələri aradan qaldırılarkən müəssisəyə dəyən maddi ziyanın azaldılması, əmlak və avadanlıqların mühafizəsi üzrə tədbirlər yerinə yetirilməlidir. Fövqəladə hal təhlükəsi yarandıqda və baş verdikdə maddi sərvətlərin mühafizəsi üçün ________________ məsuliyyət daşıyır.

**2. Mülki müdafiə tədbirlərinin təşkili və yerinə yetirilməsi.**

**2.1.«Hava həyəcanı» siqnalı verilərkən_______işçilərin fəaliyyəti.**

1._______ növbətçisi (cavabdeh) «Hava həyəcanı» siqnalını bütün işçilərə __________ vasitəsilə çatdırır.

2.«Hava həyəcanı» siqnalını alan işçilər mühafizə qurğusuna ___________ daxil olur (müəssisənin balansında mühafizə qurğusu yoxdursa, qonşuluqda yerləşən mühafizə qurğusunun yeri və tutumu göstərilir).

**2.2. İşçilərin mühafizə qurğularına daxil olması qaydası.**

Havanın güclü təsiredici zəhərli və radioaktiv maddələrlə çirklənməsi zamanı, eləcə də «Hava həyəcanı» siqnalı üzrə bütün işçilər mühafizə olunmalıdır (mühafizə qurğusunun yeri və mənsubiyyəti göstərilir).

Güclü təsiredici zəhərli maddələrlə zəhərlənmə təhlükəsi olduqda işçilərin təcili daldalanması məqsədilə hermetikləşdirilmiş otaqlardan istifadə olunur. Həmin otaqlar _____ saat ərzində hava verilmədən _______ nəfərin təhlükəsizliyini təmin edə bilər.

“Radiasiya təhlükəsi” siqnalını alan kimi işçilər şüalanmanın səviyyəsini _____ dəfə aşağı sala bilən mühafizə qurğusuna (qurğunun adı göstərilir) göndərilir.

Mühafizə qurğusunda şəxsi heyətin daldalanması üçün ayrılmış vaxt müddəti Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən müəyyən olunur.

**2.3. Fərdi mühafizə vasitələrinin (FMV) paylanması qaydaları.**

İşçilərə fərdi mühafizə vasitələrinin (növü göstərilir) paylanması müdiriyyətin müvafiq əmrinə əsasən təyin olunmuş yerdə həyata keçirilir.

Fərdi mühafizə vasitəsini almış işçilər onun sazlığını, ölçüsünü və vəziyyətini yoxlayır. Havanın güclü təsirli zəhərləyici və radioaktiv maddələrlə zəhərlənməsi zamanı əleyhqaz müvafiq komanda əsasında geyinilir.

**2.4. “Hava həyəcanı qurtardı” siqnalı verilərkən işçilərin fəaliyyət qaydası.**

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin müvafiq göstərişi əsasında müdiriyyət işçilərə daldalanacaqdan (sığınacaqdan) çıxmaq göstərişini verir. Lazım gələrsə, fövqəladə hadisənin nəticələrinin aradan qaldırılması üçün qüvvə və vasitələrin ayrılması barədə Fövqəladə Hallar Nazirliyinin müvafiq xidmətlərinə müraciət edilə bilər.

**2.5. Mülki müdafiənin hazırlıq tədbirlərinin yerinə yetirilməsinə göstəriş alan zaman:**

Müdiriyyət işçilərin toplanmasını təşkil edir, onlara mülki müdafiə üzrə görüləcək tədbirlər barədə aşağıdakı tapşırıqlarını verir.

- qısa müddət ərzində (7-12 saatdan artıq olmayaraq) mühafizə qurğusu daldalanmaq üçün hazır vəziyyətə gətirilsin;

- mühafizə qurğusunda 3 günlük qida məhsulları, su və tibbi ləvazimat ehtiyatı yaradılsın;

- işçilərin mühafizə qurğusuna daxil olması, yerləşdirilməsi və süzgəcli ventilyasiya qurğularının işi barədə mühəndis qurğusuna xidmət edən manqa komandiri təlimatlandırılsın.

Cavabdeh şəxsə (müəssisənin öz mühafizə qurğusu olmadıqda):

- işçilərin____________mühafizə qurğusuna daxil olması və yerləşdirilməsi qaydaları dəqiqləşdirilsin;

- Naxçıvan Muxtar Respublikası Mülki Müdafiə Səfərbərlik Ehtiyat Anbarlarının ____№-li anbarından _____№-li qaimə ilə _____ ədəd QP-5 markalı əleyhqaz alınsın;

- işçilərə fərdi mühafizə vasitələrinin verilməsi və pambıqlı tənzif sarğının hazırlanması təşkil edilsin.

2.6. Təxliyə qaydası (təxliyə olunacaq müəssisə tərəfindən hazırlanır).

Təxliyə tədbirləri barədə göstəriş almış ___________ müəssisənin mülki müdafiə rəisi fəaliyyətin dayandırılması və təxliyəyə hazırlıq işlərinin aparılması barədə əmr verir.

**Əlavələr:**

1. _____________ obyektdə fövqəladə hal təhlükəsi yarandıqda (yüksək hazırlıq rejimi) yerinə yetirilən tədbirlərin təqvim planı.
2. _____________obyektdə fövqəladə hal yarandıqda və baş verdikdə (fövqəladə hal rejimi) yerinə yetirilən tədbirlərin təqvim planı.
3. İşçilərin kollektiv mühafizə qurğuları ilə təmin olunması cədvəli.
4. İşçilərin fərdi mühafizə vasitələri ilə təmin olunması cədvəli.
5. İşçilərin xəbərdarlığı sxemi.

**Obyektin mülki müdafiə rəhbəri ________________________**
(soyadı,imza)

Əlavə № 1

**_____________ obyektdə fövqəladə hal təhlükəsi yarandıqda (yüksək hazırlıq rejimi) yerinə yetirilən tədbirlərin**
**TƏQVİM PLANI**

Obyektdə fövqəladə hal təhlükəsi yarandıqda dərhal işçilər xəbərdar edilir, iş fəaliyyəti dayandırılır, bütün qüvvə və vasitələr təhlükənin qarşısının alınması və fövqəladə hadisənin törədə biləcəyi nəticələrin azaldılması üzrə tədbirlərin yerinə yetirilməsinə yönəldilir. Bu məqsədlə aşağıdakı tədbirlər yerinə yetirilir:

| s/s | Tədbirlərin adı | Cavabdeh icraçı | İcra müddəti |
|---|---|---|---|
| | ***Partlayış təhlükəsi zamanı*** | | |
| 1 | Partlayış təhlükəsi barədə məlumatın rayon (şəhər) Polis şöbəsinə və Fövqəladə Hallar Nazirliyinin əməliyyat növbətçisinə çatdırılması | | S + 15 dəq. |
| 2 | Bütün işlərin qəzasız dayandırılması (iş yerlərini göstərmək), işçilərin otaqlardan təhlükəsiz yerə təxliyə edilməsi və təyin olunmuş toplanış yerində onların sayının dəqiqləşdirilməsi | | S + 30 dəq. |
| 3 | Daxili işlər orqanlarının xüsusi təyinatlı dəstələrinin qarşılanması, obyektin ərazisi və otaqların yoxlanılmasının təmin edilməsi (konkret yerləri göstərmək). Bölmə komandirindən icazə sənədini aldıqdan sonra işlərin davam etdirilməsi | | Xüsusi təyinatlı dəstələrin gəlməsi və işlərin başa çatdırılması |
| | ***Yanğın təhlükəsi yarandıqda*** | | |
| 1 | Obyektin ərazisində və otaqlarda yanğın şəraitinə müşahidənin təşkil edilməsi | | daimi |
| 2 | Obyektin yanğınsöndürmə manqasının və mövcud yanğınsöndürmə vasitələrinin hazır vəziyyətə gətirilməsi | | S + 20 dəq. |
| 3 | İşçilərin, əmlakların, maddi sərvətlərin və zəruri sənədlərin təcili təxliyəsinə hazırlıq işlərinin aparılması | | S + 2 saat |

| s/s | Tədbirlərin adı | Cavabdeh icraçı | İcra müddəti |
|---|---|---|---|
| ***Mühəndis, energetik və texnoloji sistemlərdə qəza təhlükəsi yarandıqda*** | | | |
| 1 | Qəza zamanı yarana biləcək vəziyyətin və onun fəsadlarının qiymətləndirilməsi | | S + 15 dəq. daimi |
| 2 | Təhlükəli ərazinin nəzarətdə saxlanılması, işçilərin təhlükəli zonadan çıxarılması | | dərhal |
| ***Kimyəvi zəhərlənmə təhlükəsi yarandıqda*** | | | |
| 1 | Obyektin yerləşdiyi ərazidə vəziyyətə nəzarətin təşkil edilməsi. İşçilərin xəbərdar edilməsi və fövqəladə hal şəraitində onların fəaliyyət göstərməsinə hazırlıq işinin aparılması | | daimi |
| 2 | İşçilərə fərdi mühafizə vasitələrinin (FMV) verilməsinin təşkil edilməsi | | S + 3 saat |
| 3 | Obyektin otaqlarının hermetikləşdirilməsi, su ehtiyatının yaradılması və ya işçilərin təcili təxliyəsinə hazırlıq işlərinin aparılması, ventilyasiya sistemlərinin və kondisioner-lərin söndürülməsi | | S + 4 saat |
| 4 | Zərərçəkənlərə ilk tibbi yardım göstərilməsi üçün dərmanların və əmlakların hazır vəziyyətə gətirilməsi | | S + 1 saat |
| ***Radioaktiv zəhərlənmə təhlükəsi yarandıqda*** | | | |
| 1 | Ərazinin radioaktiv çirklənməsi barədə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyindən, radio və televiziya vasitələrindən məlumatların dinlənilməsi | | daimi |
| 2 | Radioaktiv zəhərlənmənin səviyyəsi barədə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyindən mütəmadi olaraq məlumatların alınması | | mütəmadi |
| 3 | İşçilərə fərdi mühafizə vasitələrinin (FMV) paylanılması, zərurət yarandıqda pambıqlı-tənzif sarğıların hazırlanması | | S + 2 saat |
| 4 | Lazım olan həcmdə stabil yod məhlulu ehtiyatının yaradılması | | S + 24 saat |

| s/s | Tədbirlərin adı | Cavabdeh icraçı | İcra müddəti |
|---|---|---|---|
| 5 | Kondisionerlərin, ventilyasiya sistemlərinin söndürülməsi və təxliyəyə hazırlıq işlərinin aparılması, hermetik qablarda su ehti-yatının, otaqların hermetikləşdirilməsi üçün material ehtiyatının yaradılması | | S + 1 saat |
| 6 | Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi və ərazi Fövqəladə Hallar Komissiyası ilə daim əlaqənin saxlanılması | | daimi |
| **Təbii fəlakətin yaranması təhlükəsi zamanı (hava temperaturunun kəskin dəyişməsi, güclü külək, leysan yağışı, güclü qar və s.)** | | | |
| 1 | Ətraf mühitin vəziyyəti üzərində müşa-hidənin təşkil edilməsi | | daimi |
| 2 | Obyektdə rəhbər heyətin fasiləsiz növbətçiliyinin təşkil edilməsi | | S + 1 saat |
| 3 | Obyektin yanğına qarşı vəziyyətinin qiymətləndirilməsi, yanğınsöndürmə man-qasının hazırlığının artırılması, yanğından mühafizə və işlərin qəzasız dayandırılması üzrə hazırlıq tədbirlərinin həyata keçirilməsi | | S + 3 saat |
| | Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi və ərazi Fövqəladə Hallar Komissiyası ilə daim əlaqənin saxlanılması və təxliyəyə hazırlıq işlərinin aparılması | | daimi |
| ***Obyektdə və ona yaxın ərazilərdə terror aktı barədə anonim məlumat aldıqda*** | | | |
| 1 | Obyektin rəhbərinə və hüquq mühafizə orqanlarına təcili məlumatın verilməsi, onların göstərişi və tövsiyələri əsasında fəaliyyətin göstərilməsi | | dərhal |

**Obyektin mülki müdafiə qərargah rəisi ____________**

(soyadı,imza)

Əlavə № 2

**_____________ obyektdə fövqəladə hal yarandıqda və baş verdikdə (fövqəladə hal rejimi) yerinə yetirilən tədbirlərin**

**TƏQVİM PLANI**

Obyektdə yarana biləcək fövqəladə halın növündən asılı olmayaraq onun qarşısının alınması və nəticələrinin aradan qaldırılması zamanı aşağıdakı tədbirlər yerinə yetirilməlidir:

1. İşçilərin mümkün zədələnmələrdən mühafizəsinin təşkil edilməsi;

2. Fövqəladə hadisədən dəymiş ziyan və itkilərin həcminin maksimum azaldılması üzrə tədbirlərin həyata keçirilməsi;

3. Fövqəladə hadisənin qarşısının alınması və təhlükəli zonanın məhdudlaşdırılması üzrə mümkün ola bilən işlərin görülməsi;

4. Yaranmış vəziyyətin öyrənilməsi, qərarın qəbulu, obyektdə və ona yaxın ərazidə vəziyyətin normallaşdırılması üzrə zəruri tədbirlərin həyata keçirilməsi;

5. Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi və ərazi Fövqəladə Hallar Komissiyası ilə daim əlaqənin saxlanılması.

Fövqəladə halın növündən və onun inkişaf xüsusiyyətlərindən asılı olaraq obyektdə aşağıdakı tədbirlər həyata keçirilir:

| s/s | Tədbirlərin adı | Cavabdeh icraçı | İcra müddəti |
|---|---|---|---|
| | ***Partlayıcı qurğunun işə düşməsi zamanı*** | | |
| 1 | Dərhal qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin aparılmasının təşkil edilməsi və partlayış faktı barədə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməliyyat növbətçisinə məlumatın verilməsi | | dərhal |
| | ***Yanğın baş verdikdə*** | | |
| 1 | Yanğın barədə rayon (şəhər) Dövlət Yanğın Təhlükəsizliyi şöbəsinin «101» xidmətinə dərhal məlumatın verilməsi | | dərhal |
| 2 | Yanğının qarşısının alınması və söndürülməsinin əldə olan vasitələrlə təşkil edilməsi | | dərhal |
| 3 | Obyektin enerji təchizatının dayandırılması | | S + 5 dəq. |
| 4 | Yanğın baş vermiş ərazidən işçilərin təxliyə edilməsi | | S + 15 dəq. |
| 5 | Yanğının yayılmasının qarşısının alınması üçün ventilyasiya sistemlərinin, kondisionerlərin söndürülməsi, pəncərə və qapıların bağlanması | | S + 15 dəq. |
| 6 | Yanğın ocağına yaxın yerlərdən əmlakın və sənədlərin çıxarılması | | dərhal |
| 7 | Yanan və tüstülənən otaqlarda qalmış adamların və ya huşunu itirmişlərin tapılması məqsədilə, həmin yerlərin diqqətlə yoxlanılması, xəsarət alanlara ilk tibbi yardımın göstərilməsi və onların müalicə profilaktika müəssisələrinə göndərilməsi | | dərhal |
| 8 | Yanğınsöndürmə komandasının qarşılanması, yanğın ocağının yeri, obyektin spesifik xüsusiyyətləri və görülmüş işlər barədə yanğınsöndürmə komandasının rəisinə məlumatın verilməsi | | Yanğınsöndürənlər gələn kimi |
| 9 | Çıxarılmış əmlakın mühafizəsinin təşkil edilməsi | | Çıxarılma anından |
| 10 | Obyektdə yaranmış vəziyyət, xəsarət alanların sayı və yanğının qarşısının alınması üzrə görülmüş işlər barədə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinə və ərazi Fövqəladə Hallar Komissiyasına məlumatın verilməsi | | S + 30 dəq. |
| | ***Mühəndis, energetik və texnoloji sistemlərdə qəza baş verdikdə*** | | |
| 1 | Obyektin işçilərinin xəbərdar olunması və onların təhlükəli zonadan çıxarılmasının təşkil edilməsi | | S + 15 dəq. |
| 2 | Qəza barədə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməliyyat növbətçisinə məlumatın verilməsi, zərurət yarandıqda rayonun (şəhərin) müvafiq xidmətlərinin qəza briqadalarının çağırılması | | S + 30 dəq. |

| s/s | Tədbirlərin adı | Cavabdeh icraçı | İcra müddəti |
|---|---|---|---|
| 3 | Qəza yerində xəsarət alanların aşkar edilməsi, onlara ilk tibbi yardımın göstərilməsi və müalicə profilaktika müəssisələrinə göndərilməsi | | S + 1 saat |
| 4 | Qəza baş vermiş yerdən əmlakın və sənədlərin təxliyə edilməsi | | Vəziyyətdən asılı olaraq |
| 5 | Zərurət yarandıqda işçilərin təxliyəyə hazırlanması | | Vəziyyətdən asılı olaraq |
| 6 | Obyektdə yaranmış vəziyyət, xəsarət alanların sayı və qəzanın nəticələrinin aradan qaldırılması üzrə görülən işlər barədə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinə və şəhər (rayon) Fövqəladə Hallar Komissiyasına məlumatın verilməsi | | S + 1,5 saat |
| | ***Kimyəvi zəhərlənmə zamanı*** | | |
| 1 | «Hamının diqqətinə» siqnalını eşidən kimi radio və televizoru qoşaraq qəzanın xarakteri barədə məlumatın qəbul edilməsi və işçilərə çatdırılması | | Siqnal üzrə |
| 2 | Ventilyasiya sistemlərinin və kondisionerlərin söndürülməsi, pəncərə və qapıların hermetikləşdirilməsi, otaqlardan çıxmanın dayandırılması | | S + 15 dəq. |
| 3 | İşçilərə fərdi mühafizə vasitələrinin paylanılması, onlar olmadıqda aşağıdakı vasitələrdən istifadə edilməlidir:<br>- ammonyakla zəhərlənmə təhlükəsi olduqda - suda, 2%-li limon və sirkə turşusunda isladılmış sarğıdan;<br>- xlorla zəhərlənmə təhlükəsi olduqda – 2%-li soda məhlulunda isladılmış sarğıdan. | | S + 20 dəq. |
| 4 | Obyektin otaqlarında kənar maddələrin qoxusu hiss edildikdə və gücləndikdə işçilərin zəhərli zonadan çıxarılmasının təşkil edilməsi | | dərhal |

| s/s | Tədbirlərin adı | Cavabdeh icraçı | İcra müddəti |
|---|---|---|---|
| 5 | Partlayışın qarşısını almaq üçün otaqlarda açıq oddan istifadənin qadağan olunması | | dərhal |
| 6 | Zəhərlənmə zonasından çıxan zaman xəsarətalanlar aşkar edildikdə onlara ilk tibbi yardımın göstərilməsi və müalicə profilaktika müəssisələrinə göndərilməsi | | dərhal |
| 7 | Kimyəvi zəhərlənmə barədə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinə və ərazi Fövqəladə Hallar Komissiyasına məlumatın verilməsi | | Siqnal üzrə |
| | ***Radioaktiv zəhərlənmə zamanı*** | | |
| 1 | «Hamının diqqətinə» siqnalını və səsli məlumatları eşidən kimi radio qəbuledicilərin və televizorun işə salınması, qəza və onun xüsusiyyətləri barədə dövlət orqanlarının verdiyi məlumatların dinlənilməsi | | daimi |
| 2 | Obyektin və ona bitişik ərazilərin zəhərlənməsi barədə işçilərin məlumatlandırılması | | S + 5 dəq. |
| 3 | Obyekt yerləşən ərazidə radioaktiv zəhərlənmənin səviyyəsi barədə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyindən məlumatın alınması | | daimi |
| 4 | Ventilyasiya sistemləri və kondisionerlərin söndürülməsi, otaqların hermetikliyinin təmin edilməsi | | S + 5 dəq. |
| 5 | İşçilərin yod profilaktikasını aparmaq məqsədilə, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin göstərişi ilə əczaxanalardan stabil yod məhlulunun verilməsi | | Təsdiq olunmuş qrafikə uyğun |
| 6 | İşçilərin otaqlardan açıq sahəyə çıxarılmasının minimuma endirilməsi, küçəyə çıxarkən tənəffüs orqanlarının və dərinin fərdi mühafizə vasitələrindən istifadə edilməsi. Belə şəraitdə davranış qaydaları barədə işçilərin məlumatlandırılması | | daimi |

| s/s | Tədbirlərin adı | Cavabdeh icraçı | İcra müddəti |
|---|---|---|---|
| 7 | Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyindən obyektin işçilərinin təxliyəsinin məqsədəuyğunluğunun və sonrakı fəaliyyətin dəqiqləşdirilməsi | | mütəmadi |
| | ***Təbii fəlakətlər zamanı*** | | |
| 1 | Ətraf mühitdə baş verən dəyişikliklərə daimi nəzarətin təşkil edilməsi | | daimi |
| 2 | Obyektdə istehsalat fəaliyyətinin dayandırılması, işçilər arasında təşvişə yol verilməməsi, xidməti otaqların tərk olunmasının işçilərə qadağan edilməsi | | dərhal |
| 3 | Yanğın əleyhinə tədbirlərin görülməsi, istifadə olunmayan bütün elektrik avadanlıqlarının söndürülməsi, obyektin bütün otaqlarının yanğına qarşı vəziyyətinin nəzarətdə saxlanılması | | S + 10 dəq. |
| 4 | Vəziyyət pisləşərsə və obyektin subasma təhlükəsi yaranarsa, maddi sərvətlərin və sənədlərin təhlükəli zonadan çıxarılması | | Vəziyyətdən asılı olaraq |
| 5 | Zərərçəkənlərə ilk tibbi yardımın göstərilməsi və onların müalicə profilaktika müəssisələrinə göndərilməsi. Obyektin işçilərinin həyat fəaliyyətinin təşkil edilməsi | | daimi |
| 6 | Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi və ərazi Fövqəladə Hallar Komissiyası ilə daimi əlaqənin təşkil edilməsi | | daimi |
| ***Kütləvi qida zəhərlənmələri və xüsusi təhlükəli infeksiyalarla yoluxma zamanı*** | | | |
| 1 | İşçilərin qrup halında kütləvi zəhərlənməsi və ya digər infeksion xəstəliklərlə zəhərlənmə əlamətləri aşkar olunduqda təcili tibbi yardım briqadasının çağırılması | | Faktlara əsasən |
| 2 | Tibbi yardımın göstərilməsində təcili tibbi yardım briqadasına köməkliyin göstərilməsi | | dərhal |

| s/s | Tədbirlərin adı | Cavabdeh icraçı | İcra müddəti |
|---|---|---|---|
| 3 | Zəhərlənmə əlamətləri və yoluxma barədə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinə və ərazi Fövqəladə Hallar Komissiyasına məlumatın verilməsi | | S + 10 dəq. |
| 4 | Obyekt yerləşdiyi ərazidə yoluxucu xəstəliklər aşkar edildikdə obyekt işçiləri tərəfindən Səhiyyə Nazirliyinin və Gigiyena və Epidemiologiya Mərkəzinin epidemiyaya qarşı müəyyən etdiyi tədbirlərin tələblərinə ciddi əməl edilməsi | | daimi |

**Obyektin mülki müdafiə qərargah rəisi ____________**
(soyadı,imza)

Əlavə № 3

**İşçilərin kollektiv mühafizə qurğuları ilə təmin olunması**
**CƏDVƏLİ**

| s/s | Bölmələrin adı | Daldalananların sayı nəfər | Daldalanma yeri | Daldalanmaya cavabdeh şəxs |
|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | 5 |
| 1 | 1-ci şöbə | | | |
| 2 | 2-ci şöbə | | | |
| 3 | və s. | | | |
| **Cəmi** | | | | |

**Obyektin mülki müdafiə qərargah rəisi** ___________
(soyadı,imza)

Əlavə № 4

**Fərdi mühafizə vasitələri, kimyəvi-kəşfiyyat və dozimetrik-nəzarət cihazları ilə təmin olunması**
**CƏDVƏLİ**

| s/s | Struktur bölmələr | İşçilərin sayı | Fərdi mühafizə vasitələri | | | | | | Kimyəvi-kəşfiyyat və dozimetrik-nəzarət cihazları | | | | | | Tibb vasitələri | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Əleyhqaz (QP-5) | | | Mühafizə dəsti | | | Rentgenometr | | Kimyəvi kəşfiyyat cihazı | | Fərdi dozimetr | | Sarğı paketi | | Sanitar çanta | | Sanitar xərək | |
| | | | Tələb olunur | Var | Təminat | Tələb olunur | Var | Təminat | Tələb olunur | Var | Tələb olunur | Var | Tələb olunur | Var | Tələb olunur | Var | Tələb olunur | Var | Tələb olunur | Var |
| | | | əd | əd | % | əd | əd | % | əd | əd | əd | əd | əd | əd | əd | əd | əd | əd | əd | əd |
| | | | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | | |

**Obyektin mülki müdafiə qərargah rəisi** ___________
(soyadı,imza)